

FAİQ QİSMƏTOĞLU
faiq_qismetoglu@box.az

# ... və o şəkil

... Mənim tələbə dostum, istedadlı yazıçı-jurnalist Rafiq Hacıyev həmişə bizi təəccübləndirir. Allah-Təala çox sevdiyi adamlara istedad bəxş edib. Və Allah-Təala deyəsən Rafiq Hacıyevi bizdən çox istəyir. Bizə yazı-pozu qabiliyyəti veribsə, ona üç istedad bəxş edib: yazıçılıq, rəssamlıq, bir də gözəl və məlahətli səs! Bəlkə də Rafiq Hacıyev səsinin arxasınca getsəydi, jurnalistikadan daha böyük uğur qazanardı. Gözəl xanəndə kimi bəlkə də indi "xalq artisti" adını almışdı. Bunu tək mən demirəm. Bunu həm də digər istedadlı dostları - filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlı da deyir. O, rəssam kimi də böyük izlər qoya bilərdi. 40 ildən çoxdur ki, jurnalistika və yazıçılıqda qələmiylə Fərhad kimi külüng çalır, ona bir "Əməkdar jurnalist" adını da çox görürlər. Amma Rafiq Hacıyev elə xalqın yazıçısı, xalqın jurnalisti, xalqın da publisistidi. Yəni onun yazılarını oxuyan, imzasını tanıyan adamlar dostumuz və qardaşımız Rafiqi çox istəyirlər. Onu Allah da çox istəyir. Ancaq vəzifəli bəndələr çox istəmirsə, bu onların öz işləridi...

... Axı təəccüblənməyimdən, Rafiqin məni təəcübləndirdiyindən danışırdım. Elə bil bir az mətləbdən uzaq düşdük. Dedi ki, sənə bir şəkil göstərəcəm məəttəl qalacaqsan. Bu şəkil 1979-cu ildə Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin "Yeni il" gecəsi ilə bağlı hazırlanmış tədbirindən çəkilib. Bu sözü deyib əlini çantasına apardı və ordan bir şəkil çıxardı. Şəkil məni 1979-cu ilin "Yeni il" gecəsinə apardı. Həmin vaxt mən universitetin jurnalistika fakültəsini təzəcə bitirmişdim. Televiziyanın kənd təsərrüfatı şöbəsində rəhmətlik böyük yazıçı Cəlal Bərgüşadın yanında müqavilə ilə işləməyə başlamışdım.

... Onda indiki kimi gənc istedadlara sevgi yox idi. Maşallah, Aqil Abbas harda bir isatedadlı gənc görürsə, redaksiyaya gətirir, onlara bizdən də yaxşı şərait yaradır. Amma o vaxt televiziyada bəzi özündənrazı redaktorlar bizə yuxarıdan aşağı baxır, gələcəkdə onların yerini tutarıq deyə göz verib işıq vermirdilər. Amma rəhmətlik Cəlal Bərgüşad tam başqa bir sevgiylə gənclərə yanaşırdı.

... Şəkilə baxıram sağda Rafiq Hacıyevi, onun yanında Naxçıvanda kolxoz sədri işləyən "Lenin" ordenli Yusif İsmayılovu və mənim yanımda ayaq üstə duran Bərdə rayonunun "Moskva" kolxozunun sədri və Qarabağın sayılıb-seçilən ağsaqqallarından olan Hüseyn Ağayevi görürəm. Digər iki qadın və bir kişi də var. Onlar da əmək qabaqcılları idi. O çəkilişdən bir gün əvvəl Cəlal Bərgüşad Hüseyn müəllimin çıxışını yazmağı mənə həvalə etdi. Mən də o çıxışı hazırlayıb başa çatdırdım. Cəlal müəllim dedi ki, ağsaqqal səni "İnturist"də gözləyir, apar çıxışı ona çatdır. Mən də tez tərpənib "İnturist"ə getdim, liftlə yuxarı qalxıb onun otağını tapdım. Qapını döydüm, özü açdı. Gülə-gülə dedi ki, ay oğul, nə əziyyət çəkmisən? Təbii ki, mən də dilləndim ki, bu bizim vəzifə borcumuzdu...

... Günorta vaxtıydı, məni nahar yeməyinə dəvət elədi. Dedi cavan oğlansan, ürəyin nə istəyir de, gətirsinlər, içki-falan, utanma de! Dedim ki, içən deyiləm. Bu, Hüseyn müəllimin lap xoşuna gəldi. Sonra da əlavə elədi ki, heç mən də elə içən deyiləm. Cavanlıqda gərək sağlamlığın qədrini biləsən, qocalanda ağrımayasan. Onunla kəsdiyim bir tikə çörək, yediyim yemək və içdiyim çay heç vaxt yadımdan çıxmır. O qədər sadə və səmimi adam idi ki, istər-istəməz onun hərəkətlərini görüb bu insana məhəbbətim birə-beş artırdı. Ayrılanda məni qucaqlayıb öpdü və dedi: "Pul sarıdan sıxıntın olub eləsə, utanma, de". Bu kişilər bax, belə mərd, ağayana, səxavətli adam idi. Onlar heç vaxt özlərini dartmaz və başqalarına yuxarıdan aşağı baxmazdılar. Sabahı günü də "Yeni il" gecəsinin çəkilişində Hüseyn Ağayevlə yenidən görüşdük və yenidən onun şirin və səmimi söhbətlərinin qonağı olduq...

... Həmişə "Yeni il" şənliyinə yeni il gəlməmişdən 10 dəqiqə öncə Azərbaycanın xalq artisti, böyük sənətkar Zeynəb Xanlarova nöqtə qoyurdu. Daha doğrusu, yeni il onun oxuduğu mahnıdan sonra ölkəyə təşrif buyururdu. Bu dəfə də o çəkilişə gələndə yanında çox böyük sənətkarlar vardı: Rəmiş, Aftandil İsrafilov, Vəli Qədimov... Özü də canlı oxuyardı. Dörd yeni mahnı ifa etdi. Və ifa etdiyi yeni mahnılardan ikisi mənim tələbə yoldaşım İradə xanımın nişanlısı, istedadlı şair Musa Ələkbərlinin idi. Mahnılar çox gözəl, lokanik, həm də yaddaqalan idi. Mən də çəkilişdən çıxandan sonra təsadüfən şair Musa Ələkbərliylə rastlaşdım. Dedim ki, yeni il gecəsində Zeynəb Xanlarova sənin iki mahnını oxuyacaq. Və həmin vaxt Musa Ələkbərli də yeni ildə qayınatası gildə olur və heç kimə də bir söz demir. Mahnılar isə efirə getmir. Montaj zamanı deyilənlərə görə, mahnı kədərli olduğu üçün efirə buraxıl-



mır. Amma veriliş təkrar efirə çıxanda həmin mahnı yenidən tamaşaçılara çatdırılır. Təbii ki, o mahnılar çox gözəl mahnılar idi. Amma sadəcə olaraq, Sovet dönəmində çox sərt bir senzura vardı. Yəni sovet adamı yeni ildə kədərli mahnı eşitməməlidi. Bu da qəribə bir yanaşmaydı. Ancaq fakt faktlığında qalır ki, böyük sənətkar Zeynəb Xanlarova mahnının sözlərini də özü seçmişdi, musiqisini də özü bəstələmişdi. Ona görə də o mahnıların musiqisi də, sözləri də uzunömürlüdü. Tay indiki kimi söz yığını deyil. Bir də görürsən ki, orta səviyyəli müğənni deyir ki, mahnının sözləri də mənimdi, musiqisi də və özüm də ifa edirəm. Qulaq asıb görürsən ki, nə o mahnının musiqisi bir şeydi, nə sözləri, nə də ifası. Yəni musiqi də, söz də "bezdarnı" bir təsir bağışlayır...

... Verilişdən çıxandan sonra istədiyim bir qız vardı, onunla görüşmək istəyirdim. Tərs kimi də qızın ad günü idi, pulum da yox idi ona hədiyyə alım. İmkanlı bir dostumdan 50 manat borc istədim, vermədi. Dedi ki, Allaha and olsun, cibimdə bir manat pulum da yoxdu. Hansı ki, beş dəqiqə qabaq yeməkxanada pulu ödəyəndə 25-lik "paçkasını" çıxarıb arasından bir 25 kassirə vermişdi və kassir də onun xırdasını geri qaytarmışdı. Tay demədim ki, ə, kişiliyin olsun, məni aldada bilərsən, amma Allahı aldatmaq olmaz. Sonra eşitdim ki, o 25-lik "paçka" hardasa oturanda düşüb, dəli kimi olub. Deyib ki, mən bilirəm dostumun "ah"ı məni tutdu. Bu da Allaha ağır getdi...

... Fikirli-fikirli kirayənişin qaldığım evə yaxınlaşırdım. Düşünürdüm ki, Allah, mən bu qızın ad gününə getməsəm, gərək onun gözünə görünməyim. Özü də yekə-yekə demişdim ki, sənin ad günündə stolüstü saat bağışlayacam. O vaxt da bu saatlar çox dəbdəydi, qiyməti də 48 manat idi. Saat cəhənnəm, qızı itirməyimdən qorxurdum ey! Çünki dərdindən dəliydim. Evə yaxınlaşdım, açarı çıxarıb qapını açmaq istəyəndə gördüm ki, yazdığım yazıların qonorar kağızı gəlib. Allah, nə təhər sevindim! Dedim İlahi, səni tanımayana lənət! Kağıza baxıb gördüm 200 manat puldu. Gözümə işıq gəldi. Tez poçta qaçdım və kağızı doldurub kassirə verdim. O da 200 manatı mənə uzatdı. Elə pulu alandan sonra düşdüm şəhərin canına o mağaza mənim, bu mağaza sənin. Axır ki, "Tarqovu"da mağazanın birində gəlib o saatı tapdım. 48 manat verib saatı aldım və satıcıya yaxşı-yaxşı bükdürdüm. Tay utanmırdım, elə bilirdim dünya mənimdi. Qızgilə uça-uça getdim. O da "28 aprel" kinoteatrının yanında kirayənişin qalırdı. İçəri keçdim, gördüm məndən başqa hamı masanın arxasındadı - rəfiqələri, qonşuları. Hədiyyəni qıza uzatdım. Amma stolun arxasında rəhmətlik Fazil Salayevin sözü olmasın, üç dənə simpatiçni oğlanın əyləşdiyini gördüm. Zırpı-zırpı oğlanlar idi, üçü də qızın qardaşları idi. Mənə elə tərs-tərs baxdılar ki, tər məni basdı. Qorxdum ki, ayağa durub məni eşşək sudan gələnə qədər çırparlar...

... Qızın rəfiqələrindən biri bunu hiss elədi, dedi ki, Faiq mənim qardaşımdı, mənə görə ad gününə gəlib. Həmin qız da Zaqataladan idi. Qızın qardaşı dedi ki, sən Zaqataladan, o da danışanda qadan alım, qağa - deyir. Nəsə məndən şübhələndilər. Ona görə də çox oturmadım. Heç yediyim də boğazımdan keçmirdi. Dedim bilərlər, qızı cəzalandırarlar. Mən çıxanda qızın böyük qardaşı yenidən tərs-tərs mənə baxdı. Birtəhər çıxıb getdim...

... O qızın dərdindən mən dəliydim. O qədər çox istəyirdim ki, gecələr də yuxuma girdi. Bu yazını kompüterə diqtə eləyəndə Gülər xanımdan soruşdum ki, heç soruşmursan ki, dərdindən dəli olduğun qız kimiydi? Dedi bilirəm də, xanımınızdı! Bax, indi o qız mənim 37 ildi ocağımdadı, uşaqlarımın anası, nəvələrimin nənəsidi. O qızdan başqa kiminlə ailə qursaydım, vallah, bu tappa-turupa heç kim dözməzdi, çoxdan ayrılmışdı. Amma o gözəl xanım düz 37 ildi mənim hər cür kaprizlərimə və hər cür cığallığıma dözür...

... Görün o bir şəkil məni haralara apardı... Və o bir şəkil Azərbaycanın sayılıb-seçilən, samballı, ağayana kişilərindən olan Hüseyn Ağayevlə görüşdürdü. O, Allahın dərgahına qovuşub, ruhu şad olsun! Çox gözəl də övladları, nəvələri var... O bir şəkil məni Naxçıvandan olan Yusif İsmayılovla yenidən birləşdirdi. O da Allahın dərgahına qovuşub. Qəbri nurla dolsun! Və o şəkil məni həm də 23 yaşına apardı. Bax, onda mənim 23 yaşım vardı...

... Şumal kimi oğlan idim. Saçım da yerindəydi, atam, anam, qardaşım da sağ idi, özümün də dərdim-sərim yox idi. Və bir gözəl qızın da eşqiylə yaşayırdım. Bir sözlə, çox xoşbəxt günlərim idi. Ondan xoşbəxt günlərim heç vaxt olmayıb, ondan gözəl anlarım heç vaxt yada düşmür. Amma naşükür deyiləm. Bu gün də gözəl ailəm var - balalarım, nəvələrim!

... Əgər insan səhər açılanda sağ-salamat ayağa qalxırsa, boğazından bir qurtum su, bir tikə çörək keçirsə, ailəsi, balaları, nəvələri sağ-salamatdısa, İlahiyə min şükür deməlidi! İki gün bundan qabaq xalqın yazıçısı, gözəl insan və səmimi ziyalı Seyran Səxavətlə görüşəndə dedi ki, hər ana görə insan şükür eləməlidi. Mən də şükür eləyirəm. Şükür eləyirəm ki, bu yaşa çatmışam, şükür eləyirəm ki, balalarım, nəvələrim var və şükür eləyirəm ki, canımız sağdır!..